# Yalan Ermənistanın dövlət siyasətidir

## Onunsa ömrünün nə qədər olduğu hamıya məlumdur

**Ermənistanda və onun ətrafında baş verən siyasi prosesləri yaxından izlədikcə bir daha görürük ki, bu ölkədə nə varsa hamısı yalan üstə qurulub. Demək olar ki, yalan dövlət siyasətinə çevrilib. Bu ölkədə dövlət başçısından tutmuş yenicə dil açmış körpəyə qədər hamı yalan danışır.**



Tarix də göstərir ki, rəsmi İrəvan az-çox qazandığı "uğur"ları yalnız və yalnız yalan danışmaqla, xəyanətlə, tez-tez törətdiyi terrorla, köməksiz və silahsız dinc əhaliyə zülüm etməklə əldə edib. Bir zamanlar bünövrəsi qoyulmuş yalan ənənəsi bu gün erməni siyasətçilər tərəfindən daha da eybəcər şəkildə davam etdirilir.

Verdiyi müsahibəsinə əsaslanıb demək olar ki, Nikol Paşinyanın da fəaliyyətində əsas yeri yalan siyasət yürütmək tutur. Baş nazir o qədər yalan danışır ki, artıq dilinə doğru söz yatmır. Bu günlər Paşinyan daha bir yalanı ilə dünyanı özünə güldürdü. Yalan faktları ortalığa ataraq beynəlxalq təşkilatları çaşdırmağa çalışdı. Baş nazir birdənbirə jurnalist olduğunu xatırlayaraq "Ermənistan və Azərbaycan arasında kommunikasiya kanalları haqqında" məqalə yazdı. Paşinyan məqaləsində həyasızcasına Ermənistanın ərazisinin Azərbaycandan gələn yük və sərnişin daşımalarının Türkiyə və Naxçıvana getməsinə açıq olduğunu bildirdi. Bundan da böyük həyasızlıq və riyakarlıq olarmı? Axı Azərbaycandan Ermənistana gedən bütün quru yollar bağlıdır.

Xatırladaq ki, Paşinyanın da imzası olduğu 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda Ermənistan dövləti yolların açılmasını öhdəlik kimi öz üzərinə götürmüşdü. Həmin sənədin 9-cu bəndində yazılıb: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşlarının, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirirlər. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".

Prezident İlham Əliyevin üçtərəfli bəyanatın imzalanmasından sonra xalqa müraciətində demişdir: "Digər önəmli məsələ, xüsusilə qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Həm bütün kommunikasiyaların, yolların açılması, eyni zamanda, burada göstərilir ki, yeni nəqliyyat kommunikasiya infrastrukturu yaradıla bilər və yaradılmalıdır. Biz bunu əlbəttə ki, çox dəstəkləmişik. Deyə bilərəm ki, mənim təkidimlə bu bənd bu bəyanata salındı. Çünki birbaşa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bu bəndin əlaqəsi yoxdur. Ancaq mənim təkidli tələblərim şadam ki, qəbul olundu. Beləliklə, Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Çünki o mənfur düşmən 1990-cı illərin əvvəllərində və ondan da bir qədər əvvəl Naxçıvanı faktiki olaraq mühasirəyə almışdı. Bütün kommunikasiya xətləri kəsildi, - çünki o vaxt Azərbaycanın əsas hissəsindən oraya enerji resursları ötürülürdü, - faktiki olaraq Naxçıvan Muxtar Respublikası çox ağır vəziyyətdə qalmışdı. Eyni zamanda Ermənistan ərazisindən oraya hücumlar da edilirdi. Dəfələrlə demişəm, məhz Ulu Öndər Heydər Əliyevin cəsarəti və fəaliyyəti nəticəsində Naxçıvan işğal altına düşmədi. Erməni vandallarının belə planları da var idi".

Baş nazir yalanlardan ibarət olan məqaləsində riyakarcasına qeyd edir ki, 2022-ci ildə onun başçılıq etdiyi hökumət iki ölkə sərhədindəki gömrük-keçid məntəqələrini yük və sərnişin daşımalarına açmaq təklifi ilə Azərbaycana müraciət ünvanlayıb, lakin qarşı tərəf etiraz edib. Naxçıvana Ermənistan üzərindən giriş üçün infrastrukturun hələ də hazır olmadığını xatırladan baş nazir əvəzində müvəqqəti olaraq Azərbaycandan gələn yüklərin Laçın-Kornidzor buraxılış məntəqəsi ilə Ermənistana və sonra Marqara məntəqəsi ilə Türkiyəyə daşınmasını təklif edib: "Bu cür tranzit yüklərin daşınması üçün lazım olan fiziki infrastruktur artıq hazırdır və görüləcək iş de-yure qərarın qəbul edilməsidir. Azərbaycan və Türkiyədən maraq olsa, belə bir qərarı qəbul etməyə hazırıq".

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bu məsələ ilə bağlı açıqlamasında bildirib ki, Ermənistan tərəfi həqiqətən də bölgədə kommunikasiyaların açılmasında maraqlıdırsa, öhdəliklərindən boyun qaçırmamalı və bölgədəki yeni reallıqlara uyğun şəkildə kommunikasiyaların açılması istiqamətində praktiki addımlar atmalıdır: "30 ilə yaxın bir müddətdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazilərini işğal altında saxlamış, Azərbaycanın Naxçıvan Muxtar Respublikasının blokadaya düşməsinə səbəb olmuş Ermənistanın 44 günlük Vətən müharibəsindən sonrakı dörd ildə də kommunikasiyaların açılması üzrə real danışıqlar prosesinə müsbət töhfə vermədiyi hər kəsə məlumdur".

Nazirliyin sözçüsü daha sonra fikirlərinə davam edərək deyib ki, Azərbaycanın qərb bölgələrini Naxçıvan Muxtar Respublikası ilə birləşdirən kommunikasiyaların açılması məsələsi ilə bağlı Ermənistan yazılı təsbit olunmuş və imzalanmış öhdəliklərinin mövcud olduğunu bilsə də, onları indiyə qədər yerinə yetirməyib. "Ümumilikdə, Ermənistanın mahiyyətcə əhəmiyyəti olmayan, icrası çətin və praktiki cəhətdən uzun marşrutlar üzrə təkliflər irəli sürməsi diqqəti prosesdən və öhdəliklərindən yayındırmaq məqsədi daşıyır".

Göründüyü kimi, N.Paşinyanın ağ yalanlara bürünmüş cəfəngiyyat dolu məqaləsi başdan-ayağa erməni riyakarlığından ibarətdir. Məqalədə bir cümlə, bir söz də doğru deyil. Sanki baş nazir yuxuda gördüklərini, xəyal etdiklərini yazıb. Paşinyan bu addımı ilə həm gözdən pərdə asır, həm də beynəlxalq təşkilatları aldadır. Gerçək faktlar göstərir ki, onun məqaləsi başdan-ayağa yalandır, reallıqdan uzaqdır. Həqiqəti əks etdirmədiyinə görə oxuyanlarda gülüş doğurur. Yaxşı olardı ki, baş nazir belə boş-boş məqalə yazmaqdansa, rəhbəri olduğu ölkəsinin üzərinə götürdüyü öhdəliklərin həlli ilə məşğul olsun, yalanlardan birdəfəlik əl çəksin. İki ölkə arasında sülh müqaviləsinin imzalanması üçün Azərbaycanın irəli sürdüyü şərtlərin qəbul edilməsi üçün real addımlar atsın. Qərb ölkələrinin cidd-cəhdlə hazırladığı anti-Azərbaycan planlarını reallaşdırmaqdan uzaq dursun. Bax onda həm ölkəsi, həm də xalqı üçün səmərəli iş görmüş olar.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 11 mart (№ 53).- S.7.